# Şagirdlərdə tarixi zaman və tarixi məkan anlayışlarının formalaşdırılmasının əhəmiyyəti

**Aypara Elçin qızı Həşimli**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** h.aypara921@gmail.com

**Rəyçilər:** t.ü.e.d., dos. S.M. Seyidova,
p.ü.f.d. D.M. Musayev

**Açar sözlər:** tarixi anlayış, zaman, məkan, xəritə, xronologiya, şagird, müəllim
**Ключевые слова:** историческое понятие, время, пространство, карта, хронология, ученик, учитель
**Key words:** historical concept, time, space, map, chronology, student, teacher

Tarixi anlayışlar tarixi prosesin ümumiləşdirilmiş obrazıdır. Onlar tarixi hadisələrin obyektiv əlaqələrini və tarixi inkişafin qanunauyğunluqlarını əks etdirirlər. Buna görə tarixi anlayışlar terminin mənimsənilməsi tarixi prosesin səbəb əlaqələrini və qanunauyğunluqlarını başa düşmək üçün lazımdır. Yalnız əsas tarixi anlayışlar sisteminə yiyələnmək vasitəsilə şagirdlər tarixi bir elm kimi başa düşməyə yaxınlaşa bilərlər. Tarixi anlayışları təşəkkül etdirmək – nəinki idraki, həm də tərbiyəvi cəhətdən məktəbdə tarixin tədrisinin ən mühüm vəzifələrindən biridir (1, s. 214).

Tarixi anlayışları təşəkkül etdirmək metodikası sahəsində ilk addım 30-cu illərdə atılmış, müharibədən sonrakı illərdə metodikanın əsas problemlərindən birinə çevrilmişdir. 1953-1954-cü illərdə məktəb tədrisində tarixi anlayışların təşəkkülü problemi araşdırılmışdır (2, s. 80).

Elmi-metodik ədəbiyyatın təhlili, qabaqcıl təcrübənin ümumiləşdirməsi göstərir ki, tarixi hadisəni dərk etmək üçün tarixdə məlum bir hadisənin nə cür əmələ gəldiyi və həmin hadisənin öz inkişafında nə kimi əsas mərhələlərdən keçdiyi nöqteyi-nəzərdən yanaşılmalıdır. Dövlət haqqında mövzu elə bir mövzudur ki, şagirdlər dəfələrlə həmin mövzuya qayıdaraq bütün məktəb kursunun materialında onu öyrənirlər. “Dövlətin” meydana gəlməsinin ən çətin probleminin idrakın uzun və mürəkkəb yolunun başlanğıcında qoymağa ehtiyac yoxdur.

Tarixi anlayışların təşəkkülü probleminin mürəkkəbliyi və onun işlənilməsinin çətinlikləri şagirdlər tərəfindən mənimsənilməli olan tarixi anlayışların özünün xüsusi mürəkkəbliyi ilə, onların son dərəcə çoxluğu və müxtəlifliyi ilə müəyyən edilir. Digər tərəfdən müxtəlif tarixi anlayışların təşəkkül tapması yolları, üsul və metodları müxtəlif və çoxcəhətlidir. Onların nəinki şagirdlərin yaşlarından, həm də hansı tarix materialı ilə əlaqədar olaraq, hansı faktik əsasda bu və ya digər halda eyni anlayışın təşəkkül tapmasından asılı olaraq müxtəlif şəkildə göstərilirlər. Bu problemin işlənilməsi üçün elmi-metodik ədəbiyyata və qabaqcıl tarix müəllimlərinin təcrübəsinə istinad edilməlidir. Lakin onun işlənilməsi və düzgün həlli yalnız şagirdlərin yaş xüsusiyyətlərini nəzərə almaqla mənimsəmə psixologiyasının məlumatlarına istinad etdikdə mümkün olur. Pedaqoji psixologiyanın tələblərini nəzərə almadan tarixi anlayışların formalaşdırılmasına nail olmaq mümkün deyil.

Tarixin öyrənilməsi ilk növbədə anlayışların mənimsənilməsi ilə bağlıdır. Bu baxımdan tarixinin tədrisində və tarixi prosesin dərkində anlayışların böyük rolu vardır.

Tarixi anlayışların mənimsənilməsi şagirdlərə tarixi faktların mühüm spesifik, əlamətlərini

dərk etməyə imkan verir.

Tarixi təsəvvürlərin yaradılması və anlayışların formalaşdırılması prosesi eyni vaxtda həyata keçirilir. Anlayışlar təsəvvürlər əsasında formalaşdırılır. Lakin tarixi təsəvvürlər və anlayışlar arasında fərqlər vardır. Tarix təsəvvürlər, hətta, bir sinfin ayrı-ayrı şagirdlərində müxtəlif yollarla formalaşdırılır, yəni daha çox fərdiləşdirilir. Bu da şagirdlərin xarakterindən, psixoloji xüsusiyyətlərindən çox asılıdır. Bundan başqa tarixi təsəvvürlərin əsasında obrazlar dayanır və bu obrazlar tarix dərslərində, eyni zamanda kütləvi informasiya vasitələrininköməyilə yaradılır. Tarixi anlayışlar isə bütün şagirdlərdə eyni səviyyədə formalaşdırılır.

Tarixi anlayışların təşəkkülü tarixi təsəvvürlər yaratmaqla qırılmaz vəhdət təşkil edir. Təlimin gedişində şagirdlərdə yaranan tarixi təsəvvürün özündə ümumiləşdirmə üçün, təşəkkül tapan anlayış üçün lazımi ünsürlər formalaşır (3, s. 61). Tarixi təsəvvürlərin yaradılmasında, V-VI siniflərdə tarix təliminin ilk pilləsində əksər hallarda əsas cəhət tam təsvirdir. O, həm də canlı seyretmənin o cəhətini təmin edir ki, həmin cəhət təsəvvürün canlılığı və konkretliyi üçün lazımdır. Məsələn, orta əsr qəsrinin tam təsvirində tipik, səciyyəvi hissələr və xüsusiyyətlər: mənzərə təsviri və təhlilli təsvir əsas cəhətdir.

Tarixi anlayışın təşəkkülü aşağıdakı cəhətlərin köməyi ilə yarana bilər: tarixi hadisənin bütöv mənzərəsinin (ifadəli nəqletmə və ya təsvir) yaradılması zamanı; hadisənin mühüm əlamətlərinin seçilib ayrılması yolu ilə; həmin anlayışı möhkəmləndirən termin haqqında məlumat verilməsi əsasında; anlayışın müəyyən edilməsi yolu ilə; yeni dərsin izahında və sonrakı dərsdə yeni anlayışdan istifadə etməklə, yeni termini işlətməklə: yeni anlayış üzərində əməliyyat aparmaqla (məsələn, tapşırığın verilməsi, fərdi işin tapşırılması, metodiki təcrübənin tətbiq edilməsi və ya şagirdin tədqiqata cəlb edilməsi yolu ilə) və s. (4, s. 20).

Tarixi anlayışların təşəkkül etdirilməsinin həm “klassik” metodu, həm da müasir metodu mövcuddur. Məsələn, “mədəniyyət” anlayışı ilk dəfə olaraq qədim Yunanıstanın materialına daxil edilmişdir. Sonralar qədim Yunanıstanın materialında bu ilkin, təqribi anlayış yeni hadisələrin daxil edilməsi ilə zənginləşir, dəqiqləşir, konkretləşir: “Məktəb, olimpiya oyunları, teatr, memarlıq və heykəltəraşlıq, yazı və elm - bunlar hamısı mədəniyyətdir”. Məhz sadalama yolu ilə mədəniyyət tarixi anlayışını, onun tərkib hissələri olan elm, musiqi, memarlıq, teatr, kino və s. anlayışları izah və dərk etmək olar.

Misal göstərmək yolu ilə anlayışın təşəkkülü - ən sadə üsullardan biridir. Belə ki, "Müxalif qüvvələr”, "separatizm", "Müxalifət partiyası", “müxalifət” anlayışlarını, XIX əsrdə İngiltərədəki parlament mübarizəsini və ya müxalif qüvvələr, separatizm və digər anlayışları misal göstərmək və aydınlaşdırmaqla mümkündür.

Yeni tarixi anlayışlar şagirdlər üçün yeni tarixi hadisələrin şərh edilməsi ilə eyni zamanda daxil edilə, sonra onların təhlili ümumiləşdirilməsi gedişində dəqiqləşdirilə və terminlə möhkəmləndirilə bilər. Tarixi anlayışın inkişaf etdirilməsi və zənginləşdirilməsi onun daha da konkretləşdirilməsi yolu ilə, yeni cəhətlərin digər anlayışlarla əlaqələrinin, münasibətlərinin, yeni mühüm əlamətlərinin göstərilməsi yolu ilə mümkündür (5, s. 111).

Bəzi hallarda isə tarixi anlayışların «parçalanması», tarixi inkişafın ziddiyyətlərini, müxtəlifliyini, dialektikasını daha dəqiq əks etdirən yeni, yaxud müxtəlif anlayışlar əmələ gəlməsi yolu ilə xarakterizə olunur. Anlayışın parçalanmasına milli birlik vəzifəsi haqqında anlayışın inkişaf etdirilməsi misal ola bilər. “Almaniyada 1848-ci il inqilabı”, “Almaniyanın birləşdirilməsi”, “İtaliyanın birləşdirilməsi” mövzularının materiallarında o iki anlayışa: “aşağıdan birləşdirmə” və “yuxarıdan birləşdirmə” anlayışlarına parçalanır.

Müəllim ictimai-tarixi hadisəni əks etdirən anlayışları tədricən açıb göstərərək və dərinləşdirərək çalışır ki, şagirdlər tərəfindən mənimsənilən bu anlayışlarda tarixi hadisələrin inkişafi,

onların birindən digərinə keçməsi dialektikası öz əksini tapmış olsun.

Təcrübə göstərir ki, anlayışlar və nəzəri müddəalar konkret faktlar əsasında mənimsənilə bilər. Bu, çox mühüm nəticədir. Yəni faktların və anlayışların mənimsənilməsi prosesi ayrı-ayrılıqda deyil, daha çox bir-birilə qarşılıqlı əlaqədə həyata keçirilir (6, s. 92).

Anlayışlarlar hər kəs üçün dəqiq, müəyyən, birmənalı olmalıdır, yəni, obyektiv. Təcrübə göstərir ki, tarixi anlayışlar ən möhkəm şəkildə şüura yerləşmişdir, xüsusən də bir sistemdə ahəngdar şəkildə formalaşmış və şagirdlər tərəfindən aktiv zehni iş zamanı mənimsədikləri zaman ən yaxşı şəkildə daha çox idrak üçün bir vasitədir (7, s. 24).

İnsan cəmiyyətinin inkişafi müəyyən zaman müddətində baş verir. Ona görə tarixin tədrisində şagirdlərdə tarixi zaman münasibətlərinə müraciət etmək bacarıqlarının formalaşdırılması vacibdir. Bu təsəvvürlər V sinifdən etibarən formalaşdırılır. V sinifdə şəkilli təsvir üzərində iş aparılması buna imkan yaradır.

Tarixi zaman anlayışlarının formalaşdırılması şagirdlərdən ilk növbədə zaman kateqoriyasının (il, əsr, minillik, mərhələ, dövr, era) başa düşülməsini tələb edir. Bununla yanaşı hadisələrin uzun müddətliliyi və ardıcıllığını görməyi öyrənmək, yəni xronologiya ilə işləmək, hadisə və təzahürlər arasında sinxron əlaqələr yaratmaq və onları izləmək vərdişlərinə yiyələnmək tələb olunur. Bu, cəmiyyətin inkişafının ümumi mənzərəsini aydınlaşdırmağa, tarixin qanunauyğun proses, dönməz olduğunu, zamana görə dəyişdiyini dərk etməyə kömək göstərir.

Tarixi günləri əks etdirən faktları şərh etməklə şagirdlərdə dövr haqqında, hadisə və proseslər barədə ətraflı anlayış yaratmaq mümkündür.

Şagirdlərdə zaman anlayışların formalaşdırılması məqsədilə xronoloji cədvəllərdən istifadə etmək səmərəli nəticələr verir.

Məlumdur ki, tarixi hadisələr, təkcə zamana görə deyil, məkana görə də dəyişir, yəni konkret məkanda baş verir. Bu tarixi hadisələrin lokallaşdırılması kimi başa düşülür. Şagirdlərdə lokal (yəni konkret məkan) anlayışların formalaşdırılması üçün tarixi xəritələrdən istifadə olunur.

Tarixi xəritələrin əsasən üç növü vardır:

1) ölkə həyatının tarixi hadisələrini əks etdirən ümumi xəritələr.

2) tarixi ardıcıllıq məqamlarının xülasələrini əks etdirən icmal xəritələr.

3) müxtəlif tarixi hadisələri əks etdirən tematik (mövzu) xəritələr.

Bir çox tematik xəritələr xəritə-sxemlər adlanır. Bu xəritələr minimum yüklü olsa da, öyrənilən hadisə və təzahürün daxili əlaqələrinin açılmasına kömək göstərir.

Stolüstü xəritələrdən başqa təlim prosesində dərsliklərə əlavə verilmiş xəritə-əlavələrdən, atlas və kontur xəritələrdən də istifadə olunur. Tarix xəritələri özünün spesifik xüsusiyyətlərinə görə coğrafiya xəritələrindən fərqlənir. Azərbaycan tarixi üzrə xəritələrin məzmunu fənnin tədrisi məqsədləri ilə müəyyən olunur. Tarixi xəritələrdə hadisələrin dinamikası da verilir. Bu baxımdan xəritənin simvolik xüsusiyyətləri vardır.

Xəritəni bilmək, təkcə şərti işarələri, simvolik əlamətləri, şəhər, sərhəd və çayları bilmək deyil. Bu işə bələd olmaq işarələr arxasındakı tarixi gerçəkliyi, iqtisadi, sosial-siyasi və mədəni əlaqənin mürəkkəbliyini görmək deməkdir.

Tarix müəllimi şagirdlərə tarixi kitabları oxumağı öyrətdiyi kimi xəritəni də «oxumağı» öyrətməli, onunla işləmək bacarıqlarını aşılamalıdır.

Müəllimin hekayəsi və ya tarixi hadisələrin təsviri xəritə üzrə işlə əlaqələndirilməlidir. Bu zaman təkcə hadisələrin baş verdiyi yeri göstərmək deyil, həm də onların təsvirini vermək lazımdır.

Xəritədə müəyyən obyektlərin göstərilməsi dəqiq coğrafi istiqamətlərə, coğrafi əlamətlərə

və şifahi təsvirə əsaslanmalıdır.

Şəhərlər, yaşayış məntəqələri, döyüş yerləri nöqtə ilə, çaylar axdığı istiqamət üzrə, dövlətlərin sərhədləri ardıcıl xətlərlə göstərilir.

Yuxarı siniflərə keçdikcə xəritədən daha çox müstəqil bilik mənbəyi kimi istifadə olunur və nəticədə şagirdlərin bacarıqları dərinləşir.

Şagirdlərdə zaman anlayışları kontur xəritələrin köməyilə möhkəmləndirilir.

Tarixinin tədrisi prosesində şagirdlərdə anlayışların formalaşdırılması təhsil vəzifələrinin yerinə yetirilməsinə imkan yaradır. Öyrənilən dövrün mahiyyətini dərk etməyə, tarixi təzahürlərin özünəməxsusluğunu hiss etməyə kömək edir, şagirdlərin dünyagörüşünü genişləndirir. Tarixi anlayışların formalaşdırılması, həm də tərbiyəvi vəzifələrin yerinə yetirilməsinə imkan yaradır. Keçmişin mənzərəsi şagirdlərdə müəyyən emosiyalar yaradır, onları həyəcanlandırır, onlarda rəğbət və nifrət duyğuları oyadır.

Tarixi təsəvvürlər tarixi anlayışların əsasıdır. Tarixi obrazlar, keçmişin mənzərəsi nə qədər zəngin olarsa, anlayışlar sisteminin məzmunu da bir o qədər dərin və zəngin olar.

Belə bir ümumi nəticəyə gələ bilərik ki, hər bir elm kimi, tarix elmi də anlayışlar toplusundan ibarət olduğu üçün anlayışların mənimsənilməsi hər bir tarix müəlliminin ən əsas vəzifələrindən birinə çevrilməlidir. Konkret tarix faktların öyrənilməsi və keçmiş haqqında müvafiq təsəvvürlərin yaradılması məktəb kursunun ciddi ideya - təhsil və tərbiyə vəzifələrinə xidmət edir. Məktəblinin hafizəsində həkk olunmuş obraz və mənzərələrin dairəsi geniş və məzmunu zəngin olduqca onların əsasında xülasə edilmiş anlayışlar sistemi daha məzmunlu və çevik olur, bu anlayışlar sonrakı dərk etmənin daha yaxşı vasitəsi ola bilərlər. Keçmişin mənzərələri güclü təəssüratlara, məzlumlara rəqabətə, zülmkarlara nifrətə, qəhrəmanların igidliklərinə heyran qalmağa səbəb olur. Keçmişin qəhrəmanlıq surətləri çox vaxt məktəblinin həyat ideyalarının formalaşmasına, onun əxlaqına həlledici təsir göstərir. Tarixi anlayışlar gənclərin mənəvi-siyasi tərbiyəsinin güclü vasitədir.

Tarix təlimində ən əlverişli - geniş izahlı nəqletmə, şəkillərlə, xronoloji və sinxronoloji cədvəllərlə, xəritə-sxemlərlə və s. ilə iş üsullarından istifadə edilməklə tarixi anlayışların mənimsənilməsinə nail olunmalıdır.

**Məqalənin aktuallığı.** Tarixi zaman və tarixi məkan anlayışlarının qrup və cütlərlə iş formalarından istifadə edərək formalaşdırılması xüsusi aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Müasir təlim prosesinin tələblərindən irəli gələrək tarixi zaman və tarixi məkan anlayışlarının formalaşdırılmasıda innovativ metodların tətbiq edilməsi və daha da təkmilləşdirilməsinə ehtiyac var.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Sinifdənxaric və dərsdənkənar tədbirlər vasitəsilə tarixi zaman və tarixi məkan anlayışları əyanilikdə böyük rol oynayır.

## Ədəbiyyat

1. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı, 2011.
2. Məmmədova M. S. Tarixin tədrisinin aktual problemləri: Dərs vəsaiti. Bakı, 2015.
3. Əsgərov Ş. Təhsilimiz dünən, bu gün və sabah. Bakı, 2000.
4. Təhsilin humanistləşdirilməsi yolu ilə yeni təfəkkürün inkişafı. Bakı, 1999, 60 s.
5. Qasımov C. Yaddaşın bərpası. Bakı, 1999.
6. Cəbrayılov İ. Azərbaycan tarixinin tədrisi metodikası: Monoqrafiya. Bakı, 2006.
7. Довгялло М. С., Козик Л. А. Методика преподавания истории. Минск, 2018.

**А.Э. Хашимли**

## Роль формирования у учащихся понятий исторического времени и исторического места

### Резюме

В статье проанализированы и обобщены актуальность проблемы исторического понятия, а также разные мнения, связанные с данной проблемой. Здесь нашли свое отражение применение наиболее подходяних методов преподавания истории для формирования у учащихся понятий об историческом времени и историческом месте, а также, вопросы расширения мировоззрения н т.п. и был дан отзыв об этом.

**A.E. Hashimli**

## The role of formation in students of the concepts of historical time and historical place

### Summary

İn the article the relevance of problem of historical conception, various thoughts about the problem were analyzed and generalized. İn the study of history using the most suitable teaching methods to form the conception of historical place and historical time on students, at the same time to enlarge their worldvision and other issues took their reflection and were referenced.

**Redaksiyaya daxil olub:** 12.01.2021